**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

№ 31 (2065) 11 mart 2020-ci il

# M.P.Vaqifdə ali müdriklik hissi və gözəllik anlamı

**(əvvəli ötən saylarımızda)**

**Müşahidələrin, tarixi faktların sübutu olaraq məhəbbət oyunlarının da ”proloqu” və ”epiloqu” var: başlanır və sona çatır. Beləliklə, romantik roman oxunub qurtarır - qapanır. Bəs o şairin məhəbbət sevdası nə üçün sevdalığından çıxdı? Yaş idimi, baş idimi, mühit idimi səbəbi? Hər üçü! Qadın gözəlliyi: onun ədası, bədəni, səsi, ətri, ”borcunu” ödəyəndən sonra? Sübhə qədər ulduzlar kimi parlayır və sönür! Burada elmi dildə desək: bioloji, fizioloji və psixoloji amillər də səbəbdir.**

Hippokratın qənaətincə, kişi bədənində od (vəzi, maye) olur ki, bədənin enerjisini (”libido”nu) idarə edirlər, bunlar isə temperamentin (ehtirasın) əsas elementləri sayılır. Balans pozulanda insanın (elə qadının da) ruhi, yaxud fiziki baxımdan dəyişilməsinə səbəb yaradır. Sevda (ərəbcə ”həvəs”, ”sevgi”) artıq olanda - ifratlaşanda, xüsusilə, yaradıcı adamlar çox hallarda bədbinləşirlər, əsəbləşirlər. Bəzi fəsadlara şərait yaranır. M.P.Vaqifin ömrünün son illərinə nəzər yetirəndə bu ruhi faciəni sezmək olur. Dualizmə: bədənin və ruhun müstəqil mövcudluğu (hərəkəti) pozulur, hətta o şaqraq gülüşlü, əndamlı, xumar baxışlı gözəllər küsür! Məncə, M.P.Vaqif bu halı ruhi faciə kimi qarşılamış ki, məşhur ”Küsüb” müxəmməsini qələmə almışdır:

**Bilməm məndən neçün ol sevgili canan küsüb,**
**Üzümə baxmaz dəxi, bir gözləri məstan küsüb.**
**Ağladır canlar mənə, rüxsarəsi xəndan küsüb,**
**Qara günlərdə qoyub məni, məhi-taban küsüb,**
**Könlümün şəhrin sərasər eyləyib viran, küsüb...**

M.P.Vaqif ruhən nikbin, zabitəli, gözəlliyə aşina şair olmuş, bu dəyərlər poeziyasında səslənmişdir. Estetik idealının tacı sayılan şeirlərinin fəlsəfəsi hələ öyrənilməmişdir, ona bu hissi aşılayan amillərin enerji kodu araşdırılmamışdır, halbuki, buna böyük ehtiyac duyulur.

Şəhvanilik iradənin tam ixtiyarına keçməlidir şairin estetik tələbatı zövqündə, əks halda, şair onun (həzzin) tam hakimiyyətinə düşər və təslim olar. Fəzilətmi, yoxsa fəsadmı - bu amillərə münasibəti aydınlaşma halına gəlir. M.P.Vaqif dövrünün savadlı və dünyagörüşlü şairi kimi fəsadı şeirinin leytmotivinə çevirməkdən uzaq olmuşdur və onun dörd növünü təsəvvüründə həmişə canlandırmışdır ki, əsası, mühümü rəzalətdir, hətta qadının zərərinə səbəb ola bilər, o da əziyyət çəkər, nüfuzdan düşər. Qadın öz gözəlliyinə güvənib ehtirasına könüllü təslimçilik edər. M.P.Vaqif N.Tusi elmindən xəbərdardır və alimin fikrini unutmağa haqqı yox idi: ”Bəzən elə olur ki, biri bundan gələcək zərər və peşimançılığı qabaqcadan hiss etdiyi halda, şəhvətin gücündən özünü bu iyrənc əməldən saxlamağı bacarmır” - yazmışdır. M.P.Vaqif onun ilhamını riqqətə gətirən qadına hisslərini ifadə edir qarşılaşanda, lakin o, səfərə çıxarkən ikilikdə ikən iradəsinə üstünlük verir, hətta onunla danışmır, ehtiras nəfsinə rəvac vermir, ”halallaşıb, hümmətləşib dost” kimi ayrılır. Hərçənd, o, əzab çəkir bir kişi olaraq, necə ki dözmək lazım gəlir.

**Bilməm kimə deyim dərdim neçəsi,**
**Yarın tər məməsi, sinə haçası,**
**Yuxu məni aldı gələn gecəsi,**
**Gül üzündən öpüşmədik , ayrıldıq.**

**Biz doymadıq yarın şirin dilindən,**
**Şəkər parçasından, ləbi balından,**
**Mina gərdənindən, incə belindən,**
**Hayıf oldu, sarışmadıq, ayrıldıq.**

Şair bu prosesi qeyri-şüuru ilə yox, dərki ilə edir. Çin filosofu Li-Şan-İn (812-858) göstərmişdir ki, əgər şüurda şəhvət oyanmışsa, onu pozğunluq iblisləri ələ keçirəcəkdir. - Xatırlatmaqda bu fikri demək istəyirəm ki, çox zaman insan şəhvətin ən coşğun çağında, hissiyyatın ən yüksək anında elə şövqə gəlir və özünü cilovlaya bilmirsə, hərəkəti istəyini tamamlayırsa, peşmanlayır. Belə hallarda xüsusilə, kişi özünü ələ almalı, nitq qüvvəsini köməyə çağırmalı, ifrat hisslərini intizama dəvət etməyi bacarmalıdır. M.P.Vaqifə belə yozumlarda obyektiv yanaşmaq lazımdır, onun poeziyasının təmizliyini sezmək gərəkdir. Bu gün hətta onun təsvir etdiyi qadın gözəlliyindən riqqətə gəlməmək çətin işdir. Amma:



**Al çadradan yaşmaq tutub çənəyə,**
**Simin yaraşdırıb zər nimtənəyə,**
**Deyildir bərabər heç kimsənəyə,**
**Xubların şahıdır şanü şövkətdə.**

**Gülabilən zülfün cığasın əyər,**
**Üzünə baxanda qan olur ciyər.**
**Göydən yerə enmiş mələkdir məgər,**
**Yoxsa insan olmaz belə surətdə.**

Və bunun təsvirilə qurtarmış şair, ən dahi qadın portretini yaradan rəssamların qibtə edəcəyi mövcudata nail olur!

M.P.Vaqifə inanmaq gərəkdir ki, gözəlliyə vurğunluq ondan qidalanmaq, məstanələşmək - bu həyati zövq aləmi şairin ilhamı və intellektuallığa, fantaziyası ilə bağlı qeyri-adi həyat sahəsidir. Şair - onun subyekti qadın bu həyatın xoş ovqatında ağılı, davranışı ilə özünün şəhvaniliyini təmin edirsə ruhi tələbatını ödəmiş olur. Əksinə, belə acı, sürətli qüvvəni cilovlamaqda israrlı deyillərsə, qadınlar - acizlik göstərirlərsə.. sonun aqibətni axtarmağa ehtiyac qalmır! M.P.Vaqif əndazəni gözləyir, unutmur və deyir:

**Vaqif səni sevdi xublar içində,**
**Bir təzə qönçəsən gülzar içində,**
**Söz danışmaq olmaz əğyar içində,**
**Gəl çəkilək bir qırağa, Fatimə!**

Yaxud:

**Kamallı gözəldə xəta kəm gərək,**
**Sevgi gərək, söhbət gərək, dəm gərək.**
**Aşiqə vəfalı bir həmdəm gərək,**
**Həmdəmsiz bal yesə, ona acıdır.**

O yar da, O gözəl də hər məqama uymur, özünü, yerini gözləyir və hisslərini gizlətmir:

**Getdim ala gözlü yarla danışam,**
**Dedi, oğlan, dur get, söz vaxtı deyil.**
**Arif çoxdur, etmək olmaz işarət,**
**Oynatma qaşını, göz vaxtı deyil.**

M.P.Vaqif poeziyasında Şair Məni və qadın Məni münasibətlərində şəhvət hissinin tənzimlənməsi gözlənilmişdir və heç bir şeir nümunəsində yarana biləcək rəzalətin təsvirinə rast gəlmirik, necə deyərlər, ”şəhvət çoxluğunun əxlaqı”na (Tusi) işarələr vurmuşdur. M.P.Vaqif şəhvət hissinin müasir terminoloji ifadəsindən xəbərsiz (istilah XX əsrə aiddir) olsa da - bu təbiidir - qadına zövqün subyekti kimi yanaşmasına və ilahiləşdirilməsinə çağdaş yozumda mənfi mənada hallandırmaq, fikrimcə, nadanlıqdır. Kişi və qadının həyat idealının subyekti olmasında mənəvi - fiziki yaşantının ödənişində pozucu, dağıdıcı yarlığını vurmaq həqiqətdən uzaqdır.

Bir qədər kənara çıxaq: Şərq şəhvətinin zəngin kökləri, işıqlı effekti danılmazdır. Şərq mədəniyyətində şəhvət (erotika) həyatın ecazkar sintezi üzərində qurulur. Yaxın və Orta Şərq məmləkətlərinin orta çağlar mədəniyyətində bu sintezin qəribə paradoksal təzahürləri, görüntüləri mövcuddur və bunlar şəhvətin atributları kimi özünü büruzə verə bilir: Kişi və qadın münasibətlərini cinsi yaxınlığın yadrosu, daşıyıcısı qismində götürürüksə, ”ali müdriklikdən” qaçmağa dəyməz. Kişi qadın gözəlliyindən ovqatlanırsa, həzz alırsa və əkscinslər bir-birini anlayırlar - hansı sərbəstlikdən söz gedə biller? Antik filosof Platon demişdir: ”Eros gözəllik ideyasının dərkinə olan vurğunluqdur”. Burada yenə də Şərqə və şərqliyə məxsus gözəlliyə vurğunluq hissi şəhvət mühitinə xidmətdə təzahür edir. Kişi (eləcə də şair) qadının gözəlliyinin: bədəninin zahiri əlamətlərinin harmoniyasını, hətta ədasını, səsini, yerişini və s. mənimsəyir, mənəvi - ruhi zövqdən, praktik aktdan intim şüura - hissiyyata yol açır və özündəki inamsızlığı aradan qaldırmağa hazırlayır. M.P.Vaqif poeziyasında məxsusi şeirlərində bu bəşəri hiss əyanidir:

**Gərdənində tellər nə gözəl teldi,**
**Onların məsləki o nazik beldi.**
**Nə sənki mərmərdi, nə bərgi güldü,**
**Bu ağ əndam kimi, bu bədən kimi.**

**Zülfün sünbüldür, yanağı lalə,**
**Baxışı tən edər vəhşi qəzalə.**
**Gözləri məstanə, ağzı piyalə,**
**Gərdəni minadır mənim sevdigim.**

**Ağ sinən gözəldir, gərdən gözəldir,**
**Sərasər əndamın birdən gözəldir.**
**Sərv qəddin sənubərdən gözəldir,**
**Qolların, topuğun buxaqlarından.**

**Şahmar təki gərdənində bulanır,**
**Gülab ilə sığallanır, sulanır,**
**Həlqə düşüb, buxaq altda dolanır,**
**Baş qoyur, sarılır qucağa zülfün...**

M.P.Vaqif şeiriyyətinin yaranma, oyanma və tərənnüm mənbələrindən danışarkən ”ştampçılıq”dan qaçmaq gərəkdir və bu klassik poeziyamızda, M.P.Vaqifə, Q.B.Zakirə və S.Ə.Şirvaniyə məxsus deməklə ifrata varmıram. Bu üç böyük şairimiz gözəllikdən ruhən və emosiyadan bəhrələnməklə, gözəlliyin qədrini bilməklə, müəyyən ”qadağalar”ı gözləməklə şedevr nümunələr yaratmışlar. Gözəllik duyğularını mənimsəməklə: bədən və ruh oyanışlarını reallaşdırmışlar. M.P.Vaqifdə belə predmetli şeirlərin yazılma gedişində ruhi ayrılmalar bədəninə qayıdırsa, ruhunu ”axtarmır”, çünki bu prosesdə şairin nəzərətindən çıxmış olur - o anlaracan - özündən deyil, qadın gözəlliyinin xəyali təəssüratındadır. Vaqifdən bir neçə əsr sonra böyük psixoloq Z.Freyd poeziyanın, ümumiyyətlə, bədii yaradıcılığın yaranmasında, şeirin doğuluşunda təhtəlşüura - libidoya - fövqəl enerji məsələsinə qayıtdı. Şeir yazılarkən şairin daxilindəki ilahi qüvvə - enerji şəhvət hissilə qovuşur, mənəvi yaşantı ilə maddi həzzalma birləşir. M.P.Vaqif səviyyəsində qadın gözəlliyindən yazan ikinci şairə təsadüf etmirik; çünki ilhamı ilə yanaşı estetik zövqü, yaşantısı poetik baxımından bədən və ruhun yaradıcılıq instikti və iqtidarı ilə tarazlaşır, impressiv təəssürat oyadıcı məqamlardan başlayır erotimaniya (şəhvətə aludəçilik) qədər davam edir, şeirin qələmə alınması başa çatanda əsəblər sakitləşir. Əvvəli isə heç də belə ovqat bağışlamamışdı gözəli.

**Qaşın cəllad, gözün şuxi-sitəmkar,**
**Hər baxanda yüz qan eylər aşikar.**
**Yenə can almağa xəyalınmı var?**
**Məstanə gözlərin alalanıbdır.**

**Vaqifə, ey sənəm, cövrü az eylə,**
**Xəyalını xəyalıma söz eylə,**
**Bundan belə bizi sərəfraz eylə,**
**Canım çox yolunda cəfalanıbdır.**

Molla Pənah Vaqif poeziyasına belə bir ədəbi-nəzəri baxış bucağından yanaşmağın vaxtı çatmışdır və belə bir araşdırmaya dərin ehtiyac duyulur. Xarici ölkənin yazarlarında heç də ”pərdə arxası” olmayan emosional - fərdi hisslərdən yazan tənqidçilərimiz zəhmət çəkib gözəllik duyğusunun fəlsəfəsini özündə ehtiva edən klassik şairlərimizə, o cümlədən, M.P.Vaqif şeirinə də qələm tutsunlar, improvizasiyadan uzaqlaşsınlar.

**Allahverdi Eminov**



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR